**Bəyimxanım VƏLİYEVA**
Milli Konservatoriyanın doktorantı

# HAVALANSIN XANIN SƏSİ...

*ulu Xan Şuşinskinin konsert ifaçılığına bir nəzər*

Azərbaycan Respublikasının Xalq artisti Xan Şuşinskinin yüksək səviyyəli sənətkarlığı, özünəməxsus professionallıq məziyyətləri və görkəmli muğam ustası və ustad kimi tanınması onun konsert-ifaçılıq fəaliyyəti ilə sıxı bağlıdır. Bu müqtədir sənət xadiminin milli ifaçılıq sənətindəki inkişafındakı xidmətləri, xanəndəlik sənətindəki yenilikləri öz əksini 1920-1975-ci illərdə, yəni yarım əsrdən də artıq bir dövrü əhatə edən saysız-hesabsız konsertlərdə, qazandığı alqışlarda, tükənməz dinləyici sevgisində öz əksini tapır. O, xalqa və sənətə xidmətlərini, yüksək ifaçılıq məharətini məhz canlı konsertlər vasitəsilə həyata keçirmişdir. Bütün peşəkar musiqiçilər kimi bu məziyyət Xan Şuşinskinin də mütəmadi olaraq oxuma, ifa tərzində, repertuarında, daima püxtələşməsində və müqayisəolunmaz dərəcədə şöhrət qazanmasında mühüm əhəmiyyət daşıyırdı.

Xan Şuşinskinin dinləyicilərlə daimi ünsiyyəti, xalq tərəfindən sevilməsi, müxtəlif auditoriyalarda çıxışları, sənətkar məsuliyyəti, bənzərsiz səs texnikasına və fərdi ifa üslubuna malik olması, muğamları, zərbi-muğamları, təsnif və xalq mahnılarını böyük məharətlə ifa etməsi, yeni xanəndə-oxuma üslubu, muğam şöbələri yaratması, müxtəlif fəxri adlara və mükafatlara layiq görülməsi - bütün bunlar onun davamlı konsert fəaliyyətinin məntiqi nəticəsidir. Bir sözlə, ümumiləşdirmiş olsaq görkəmli xanəndənin peşəkar ifaçılıq portretinin ən ümdə çizgiləri ilk növbədə əlbəttə ki, konsert-ifaçılıq fəaliyyətində öz əksini tapıbdır.

Bu baxımdan ustad xanəndənin konsert fəaliyyətini şərti olaraq bir neçə mərhələyə bölmək olar:
1) Azərbaycan Dövlət Filarmoniyasının solisti olana qədərki konsert-ifaçılıq fəaliyyəti. O cümlədən, ötən əsrin 20-30-cu illərində Qarabağ, Şuşa, Bakı, Tiflis, İrəvan və digər şəhərlərdə verdiyi konsertlər;
2) 1940-1950-ci illərdə konsert-ifaçılıq fəaliyyəti;
3) Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi həm-ifaçı, həm də ustad kimi fəaliyyəti.

Xan Şuşinskinin həyat və sənət bioqrafiyasında bu mərhələlərin hər birinin özünəməxsus yeri və rolu vardır. Bu mərhələlər öz faktolojisi, uğurları və yenilikləri ilə səciyyələnir. Onların mahiyyəti yalnız konsertlərin xronoloji ardıcıllığından ibarət deyil. Xan Şuşinskinin konsert fəaliyyəti mahiyyət etibarilə XX əsr muğam sənətinin, milli musiqi ifaçılığının inkişafını təmin edən mühüm amillərdən biridir. Bu faktlardan bəzilərini araşdırmaq zəruridir.



Xan Şuşinski sənətə qədəm qoyduğu ilk vaxtlardan Qarabağda, xüsusilə Şuşada ad-san qazanmışdı. Gənc xanəndənin istedadı, geniş səs imkanları, bəmdə və zildə eyni dərəcədə məharətlə oxuması, xüsusilə zildə şaqraq zəngulələr vurması, muğamları, təsnif və xalq mahnılarını ustalıqla təfsir etməsi, səsinə bir ifaçı kimi necə deyərlər yiyə durması, üstəlik də səhnə mədəniyyəti və səhnə ədəb-ərkanı onu tez bir zamanda xalq arasında məşhurlaşdırmışdı. Xan Şuşinskinin ifası haqqında hələ onun gənclik illərində Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Səməd Vurğun, Bülbül, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, İslam Abdullayev, Seyid Şuşinski, Zülfü Adıgözəlov kimi qüdrətli sənətkarlar təriflər söyləmiş, onun səsinə və ifaçılıq mədəniyyətinə yüksək qiymət vermişlər.

İstər toylarda, şənlik və məclislərdə, istərsə də səhnədə ifa etməyə məsuliyyətlə yanaşan gənc xanəndə dinləyiciyə, sənətə, özünə, xüsusilə muğam irsinə qarşı məsuliyyət hissini, tələbəkarlığını, hörmət və ehtiramını həmişə saxlayır, özündən əvvəlki ustadların ənənə və tövsiyələrinə əməl edirdi. Müasirlərinin, davamçılarının söylədiyi xatirələrə görə, o, peşəkar ifaçı kimi əldə etdiyi uğurlardan, şan-şöhrətdən, ad-sandan, tərifdən heç bir vaxt arxayınlaşmaz, lovğalanmaz, necə deyərlər, döşünə döyməz, əksinə öz təvazökarlığını və səmimiliyini, sənətdə və səhnədə isə öz ustalığını və özünə qarşı tələbkarlığını heç vaxt itirməzdi.

Öz sənəti və peşəkarlığı Qarabağın zəngin muğam mühitində təməl tapan gənc xanəndə Xan Şuşinski 1920-ci illərdə yalnız toy məclislərində, el şənliklərində, musiqili-ədəbi toplantılarda deyil, Şuşa şəhərinin o vaxtkı teatrında təşkil olunan konsertlərdə də çıxış edirdi. Xalq musiqimizin Qarabağ xanəndə sənətinin bilicilərindən biri olan Firudun Şuşinski öz kitabında belə yazır: "Xanın şəhərdəki konsertləri daha izdihamlı olardı. Onun şirin səsini, duzlu nəfəsini dinləmək üçün nəinki şəhərə gələn minlərlə qonaq, hətta Qarabağın uzaq kəndlərindən belə dinləyicilər şəhərdəki teatr binasına axışardılar. Bilet tapmaq müşkül olardı. Heç də hamı konsertlərə düşə bilməzdi. Getdikcə dinləyicilərin, tamaşaçıların narazılığı artırdı. Bunu nəzərə alaraq, bəzən Xanın konsertlərini şəhər bulvarında (şəhər bağında - B.V.), açıq havada təşkil edərdilər. Belə hallarda bulvara girmək üçün xüsusi bilet satılardı. Xan oxuyanda şəhərin küçələrində bütün hərəkət dayanardı... Hamı bulvara daxil olmağa can atardı. Bilet tapmayanlar bulvarın ətrafındakı evlərin eyvanına və damına yığışardılar ki, heç olmasa Xanın səsini eşidə bilsinlər."

...1920-ci illərin çoxsaylı nailiyyətlərindən biri də onun Gürcüstana və İrəvana dəvət olunması idi. Bu konsertlər gənc xanəndəyə qonşu ölkələrdə böyük şöhrət və hörmət qazandırdı. Maraqlıdır ki, Xan Şuşinskinin Bakıda ilk konserti həmin illərə təsadüf edirdi. Bakıda ilk konserti 1923-cü ildə "Müdafiə evi"ndə baş tutmuşdur. O illərdə Azərbaycan Dövlət Filarmoniyası hələ rəsmi olaraq yaradılmamışdı. Lakin filarmoniyanın yerləşəcəyi binada - "Müdafiə evi"ndə tez-tez konsertlər təşkil olunurdu. Həmin səhnədə isə Xan Şuşinskidən əvvəl Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgər, Keçəçi oğlu Məhəmməd, Seyid Şuşinki kimi şöhrətli, adlı-sanlı sənətkarlar çıxış etmişdi. Sənət xiridarı olan və muğamı sevən Bakı dinləyiciləri qarşısında belə korifey ifaçılardan sonra çıxış etmək gənc xanəndə üçün çox çətin və məsuliyyətli bir sınaq idi. Həmin konsert Xanın sənət taleyində həlledici rol oynaya bilərdi. Maraqlıdır ki, Xan Şuşinski təcrübəli və görkəmli xanəndələrin dəfələrlə çıxış etdiyi səhnədəki ilk konsertində zil və aydın səs tələb edən "Heyratı" zərbi-muğamını oxumağa cəsarət edir. Onu da nəzərə almaq lazımdır ki, xalq bu zərbi-muğamı korifey müğənnilərin ifasında dəfələrlə dinləmişdi. İndi isə hələ yaxşı tanımadıqları gənc xanəndə onların qarşısında "Heyratı" oxumalıydı. "Xanəndə oxuyub qurtardı, yerindən qalxdı və tərəddüd





içində bir neçə dəfə tamaşaçılara baş əydi. Elə bu an salon təlatümə gəldi: "Sağ ol!", "Afərin!", "Halal olsun!" - sözləri sürəkli alqış sədalarına qarışdı." Dinləyicilərin alqışları onu səhnəyə qaytardı və o "Qatar" muğamını, "İrəvanda xal qalmadı" xalq mahnısını yenə də bənzərsiz ifa tərzi ilə oxudu".

X.Şuşinski 1930-cu illərdə dəfələrlə Bakıya konsertlərə dəvət olunmuş və hər dəfə də uğurla, alqışların müşayiəti ilə çıxış etmişdi. "Yeni yol" qəzetinin 1930-cu il, 4 noyabr tarixli sayında İ.Cahangirov adlı müəllif "Xalq mahnılarının böyük ustası" məqaləsində belə yazırdı: "Qarabağdan dəvət olunmuş məşhur xanəndə Xanın konsertləri böyük müvəffəqiyyətlə keçdi. Artıq Xan bir xanəndə deyil, bəlkə də xalq mahnılarının ustası, böyük ifaçısı olduğunu isbat etdi. Xanın çıxışları tamaşaçıların sürəkli alqışları ilə qarşılandı. Xan incə və şirin tenor səsinə malik olmaqla, oxumaq sahəsində misli görünməmiş ustalıq göstərdi. Xanın zəngulələri (koloratura) onun oxumaq sənətinə yüksək dərəcədə çatdığını göstərir. Xatırladaq ki, o zaman X.Şuşinskinin cəmi 29 yaşı var idi..".

Ötən əsrin 20-30-cu illərində Bakıda "Şərq konserti" adlı silsilə konsertlər geniş şöhrət qazanmışdı. Bu konsertlər Bakının musiqi həyatında, ifaçılıq sənətində, musiqinin təbliğində mühüm yer tuturdu. Adı dillər əzbəri olan, sənətkarlığı bütün Qafqazda şöhrət tapmış gənc xanəndə Xan Şuşinski üçün isə ayrıca "Şərq konserti" təşkil olunmuşdu. Bu konsert 1931-ci il, mayın 7-də M.F.Axundov adına Böyük Dövlət Teatrının binasında keçirildi. Afişada belə yazılmışdı: "Qarabağdan dəvət edilmiş xalq xanəndəsi Xanın iştirakı ilə Böyük Şərq konserti." Konsertin proqramına Cabbar Qaryağdıoğlu, Zülfü Adıgözəlov, Qurban Pirimov kimi məhşur sənət xadimlərinin ifası da daxil idi. Gənc xanəndə X.Şuşinskinin solo proqramında belə görkəmli və adlı-sanlı musiqiçilərin çıxışı onun ifaçılıq məharətinə, istedadına və peşəkarlığına verilən yüksək qiymətin bariz ifadəsi idi. X.Şuşinskinin bu solo konserti də geniş əks-səda doğurdu, konsert barədə mətbuatda heyranlıq bildirən rəylər yazıldı.

1930-cu illəri X.Şuşinskinin peşəkar xanəndə kimi konsert fəaliyyətində daha uğurlu mərhələ hesab etmək olar. Belə uğurlardan biri 1934-cü ildə Tiflis şəhərində keçirilən "Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadası"nda baş tutdu. Olimpiadanın konsertlərində nümayiş etdirdiyi peşəkarlıq səviyyəsinə, səhnə mədəniyyətinə, istedadına görə birinci mükafata layiq görülən X.Şuşinski Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli Fəxri fərmanı ilə təltif olundu. Lakin bu qələbəsi də gənc xanəndəni öz məsuliyyət və çalışqanlığından, təvazökar və tələbkar təbiətindən, sənətə bağlılığından döndərə bilmədi. Əksinə, o, öz üzərində daha məsuliyyətlə işlədi, bacarıq və istedadını yenə də xalq musiqisinin daha geniş və ardıcıl təbliğinə yönəltdi. Ağdamdakı silsilə konsertlər bu sıradandır. Rayon qəzeti onun barəsində belə yazırdı: "Cümhuriyyətimizin ən məşhur və Zaqafqaziya olimpiadasında birincilik qazanmış xalq xanəndəsi Xan Şuşinski yoldaş kolxozçularımıza bədii zövq vermək üçün pambıq kolxozlarına getmişdi"...

Görkəmli sənətkar öz konsert-ifaçılıq fəaliyyətini yaşadığı dövrün ən müxtəlif auditoriyaları qarşısında həyata keçirirdi. Onun dinləyiciləri kənd zəhmətkeşləri, zavod və fabrik işçiləri, tikinti fəhlələri, müəllimlər, əmək və müharibə qəhrəmanları, sənət adamları, gənclər, məktəblilər, hərbçilər, peşəkar musiqiçilər, ziyalılar, bəstəkarlar, rəsmi şəxslər və

digər sosial təbəqələrdən olan insanlar idi. Bu qəbildən, 1920-1930-cu illərdə hərbi hissələrdə, 1940-cı illərdə hospitallarda verdiyi hamilik konsertləri buna nümunə ola bilər. Bu konsertləri xatırlayan görkəmli bəstəkar, dirijor və musiqişünas Əfrasiyab Bədəlbəyli sənətkarın 70 illik yubileyindəki nitqində belə demişdir: "Böyük Vətən müharibəsinin ən ağır illərində Bakıda və Bakının civarında olan hospitallarda yatan yaralı əsgər və zabitlərimizin könlünü açmaq, onlara bədii qida vermək incəsənət xadimlərinin şərəfli vəzifəsiydi. O zaman mən filarmoniyanın müdiri və bədii rəhbəriydim. Biz o zaman hospitallarda gündə beş-altı və bəzən də səkkiz-doqquz hamilik konserti verirdik. Bu şərəfli, həm də vacib bədii tədbirin yerinə yetirilməsi işində Xan Şuşinskinin əməyi, zəhməti unudula bilməz. Dəfələrlə olub ki, o qardaşı tarzən Allahyarla qarlı-küləkli havada, üstüaçıq maşında, dinməz-söyləməz, bir gündə iki-üç hamilik konsertinə getmişdir."

Xan Şuşinskinin ifaçılıq portretini tamamlayan tutarlı faktlardan biri də 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündəki konsertlərdir. Respublikamızı layiqincə təmsil edən mədəniyyət xadimləri arasında xanəndə Xan Şuşinski də var idi.

Xalq artisti, görkəmli bəstəkar Tofiq Quliyev "Xan Şuşinski" kitabına yazdığı ön sözdə həmin konserti heyranlıqla belə xatırlayır: "Xan Şuşinskinin sənəti, sözsüz, Azərbaycan musiqisində böyük hadisədir... Moskvada, 1959-cu ildə Azərbaycan incəsənəti ongünlüyündə baş vermiş bir hadisəni xatırlayıram. Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri kimi mən, ongünlüyün bütün konsert proqramlarının tərtibində yaxından iştirak edirdim... Tədbirlərin keyfiyyətinə və nizam-intizamına nəzarət etmək məqsədi ilə hər gün bir neçə konsertdə olurdum. Bir axşam mən Kreml teatrına yollandım. Həmin gün burada Səid Rüstəmovun rəhbərliyi altında xalq çalğı alətləri orkestri konsert verirdi. Adətən konsertin sonunda çıxış edən Xan Şuşinski də solistlərin arasında idi. Mən səhnənin arxasına keçdikdə konferansye növbəti nömrəni elan etdi: "Qarabağ şikəstəsi", ifa edir Xan Şuşinski". Orkestr başladı müqəddiməni çalmağa və... mən dəhşətə gəldim... İş burasındadır ki, "Qarabağ şikəstəsi" iki müxtəlif tonallıqda orkestrləşdirilmişdi: orta səs diapazonuna malik xanəndələr üçün bir tonallıqda, Xan üçün isə xüsusi olaraq, daha yüksək tonallıqda. Orkestrin kitabxanaçısı musiqiçilərin qovluqlarına səhvən məhz orta səs üçün nəzərdə tutulmuş "Şikəstə"nin notlarını qoymuşdu. Müqəddimənin ilk səslərini eşidib tonallığı tanıdıqda məni vahimə bürüdü. Əgər Xan orkestrin çaldığı, onun üçün çox alçaq olan tonallıqda oxusa idi, xanəndənin çıxışı tam uğursuzluqla nəticələnə bilərdi. Səhnə arxasından dirijorluq edən S.Rüstəmova nəzər saldıqda onun bənizi qaçmış, hürkmüş çöhrəsini gördüm. Lakin artıq gec idi, orkestr vəchlə çalırdı... Mən dəhşət içində başımı tutub, qulaqlarımı tıxamaq istəyirdim ki, birdən...

Xanın büllur kimi saf səsini eşitdim. Xanəndə yazılmış tonallıqdan bir oktava yuxarı oxumağa başlamışdı. Axı bu, hətta onun səs diapazonuna görə də çox yüksək idi. Odur ki, mən böyük bir həyəcanla onun ifasının ardını izləməyə başladım. Xan ən yüksək zirvələri asanlıqla dəf edirdi. Nə qədər təəccüblü olsa da, o, "Şikəstə"ni əvvəldən axıracan həmişəki kimi sərbəstliklə oxuyub qurtardı. Həmişə olduğu kimi, dinləyicilər Xanı uzun-uzadı alqışladılar. Nəhayət, xanəndə səhnə arxasına keçdikdə, mən boynuna atılıb, onu öpüb qucaqlamağa başladım. Bu qeyri-adi insan isə indicə qazandığı yaradıcılıq qələbəsini sanki dərk etməyərək, öz sadəliyi və təvazökarlığını bir an da itirmədi. Dinləyicilərin ürəyində bu böyük xanəndə məhz beləcə, gözəl, xeyirxah, nurani təbəssümlü bir insan kimi yaşayacaqdır."

Xan Şuşinskinin XX əsrin 20-70-cı illərində Qarabağın şəhər və kəndlərində, Bakıda, Naxçıvanda və digər rayonlarda, eləcə də İranda, Qafqazın qeyri şəhərlərində verdiyi konsertlər ifaçılıq tariximizin parlaq səhifələrini əks etdirir. Xüsusilə, görkəmli sənətkarın Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində onilliklər boyunca solist kimi konsert fəaliyyəti, televiziya və radiodakı samballı çıxışları, həyatı boyunca nümayiş etdirdiyi hər bir ifası milli musiqi irsimizin, o cümlədən muğamların təbliğində, sevilməsində, eləcə də gənc ifaçılar nəslinin yetişməsində böyük əhəmiyyətə malikdir.